**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
_______________dos. Zaur Məmmədov
"26" "XII" 2024-cü il

**Fənn sillabusu**

İxtisas: 050406- "Maliyyə", 050409-"Mühasibat"
Fakültə: İqtisadiyyat və idarəetmə
Kafedra: Maliyyə idarəetməsi və audit

**I.Fənn haqqında məlumat:**
Fənnin adı: Maliyyə menecmenti (Fənn müəllimi tərəfindən tərtib olunmuş "26" "XII" 2024-cü il tarixli 07 saylı protokolu ilə təsdiq edilən işçi tədris proqramı).
Kodu: İPF-B17
Tədris ili: V- 2024/2025 Semestr: II
Tədris yükü: cəmi: 18 saat (10 saat mühazirə, 4*2 seminar)
Tədris forması: Qiyabi
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 4 kredit
Auditoriya №:
Saat:

**II.Müəllim haqqında məlumat:**
Adı, soyadı, elmi dərəcəsi və elmi adı: Təhməzov Murad Nazim oğlu, müəllim
Məsləhət günləri və saatı: IV-V gün saat $12^{00}$-$13^{00}$.
E-mail ünvanı: murad.tahmazov.97@mail.ru
Kafedranın ünvanı: Lənkəran ş., Füzuli küç.,170-a

**III.Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
Əsas
1. Atakişiyev M.C., Şıxəliyeva N.M., Nurəliyeva R.N. Maliyyə menecmenti. Dərslik. Bakı, "Azərnəşr"-2010
2. Səfərov Q.Ə., Əliyev N.M., Cəlilova S.C. Maliyyə menecmenti: əsas anlayışlar, məsələlər, işgüzar situasiyalar və testlər. Dərs vəsaiti. Bakı, 2012, 325 səh.

Əlavə
3. B.Ataşov, N.Novruzov, E.İbrahimov. Maliyyə nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, "Kooperasiya" nəşriyyatı, 2014, 648 səh.
4. M V.Z.Zeynalov Maliyyənin əsasları. Bakı, 2008
5. D.Bağırov, M. Həsənli. Maliyyə / Dərs vəsaiti (ikinci buraxılış). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011
6. N. Novruzov, X. Hüseynov Maliyyə. Dərslik. Bakı, 2007
7. Müslümov S.Y., Kazimov R.N. Maliyyə təhlili (dərs vəsaiti). Bakı, 2011, 312 səh.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisi vacib deyildir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Maliyyə menecmenti müəssisələrin maliyyə fəaliyyətinin, yəni onların kapital və gəlirlərinin formalaşması və istifadəsi ilə əlaqədar pul münasibətlərinin idarəetmə məharətidir. Maliyyə menecmenti maliyyə, idarəetmə, uçot və təhlil sahəsindəki nəzəri işləmələri və onun çərçivəsində hazırlanmış yanaşmaların praktiki tərəflərini müvəffəqiyyətlə əlaqələndirən iqtisad elminin ən perspektiv istiqamətlərindən biridir. Maliyyə menecmenti müəssisənin pul dövriyyəsinin, maliyyə ehtiyatlarının formalaşmasının və istifadəsinin idarə olunması prosesidir ki, onun vasitəsilə təsərrüfat subyekti strateji, taktiki və cari məqsədlərinə daha tez nail olur. Maliyyə menecmenti maliyyə nəzəriyyəsi ilə mühasibat uçotu arasında əlaqələndirici həlqədir. Başqa sözlə, maliyyə menecmentinə gedən yolun başlanğıcı mühasibat uçotundan keçir. Maliyyənin idarə edilməsi bütün iqtisadi formasiyalarda, o cümlədən planlı iqtisadiyyatda mövcud olmuşdursa da, "Maliyyə menecmenti" anlayışı bazar iqtisadiyyatı şəraitində maliyyənin idarə olunmasını ifadə edir. Bu baxımdan Azərbaycan Respublikasında geniş miqyaslı islahatların aparılması zamanı "Maliyyə menecmenti" anlayışının tətbiqinə zərurət yaranmışdır. Bu istiqamətdə də "Maliyyə menecmenti" bir elm kimi öyrənilməsi aktuallıq kəsb edir.
Fənnin məqsəd və vəzifələri aşağıdakılardır:
- Maliyyə menecmentinin təşkilinin nəzəri-metodoloji əsaslarının öyrənilməsi;
- Maliyyə menecmentinin konseptual əsaslarının öyrənilməsi;

Scanned with CamScanner

- Maliyyə menecmentinin strategiyası və taktikası, idarəetmə obyekti və subyektinin öyrənilməsi;
- Maliyyə menecmentin vəzifələrinin öyrənilməsi;
- Maliyyə menecmentinin məqsədlərinin öyrənilməsi;
- Maliyyə menecmenti sistemində müəssisələrin maliyyə təhlilinin metodikasının öyrənilməsi;
- Müəssisənin maliyyə vəziyyəti, maliyyə sabitliyi və ödəmə qabiliyyətinin qiymətləndirilməsi ilə bağlı biliklərə yiyələnmək və s.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:
- 10 bal-Tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal-Tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal-Tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal-Tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal-Tələbənin cavabı əsasən düzgündür;
- 5 bal-Tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal-Tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal-Tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal-Tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal-suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə Tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı:** 18 saat (10 saat mühazirə, 4*2 seminar)

| № | Keçirilən mühazirə, seminar, məşğələ və sərbəst sərbəst mövzuların məzmunu | Mühazirə | | Seminar | |
|---|---|---|---|---|---|
| | | Saat | Tarix | Saat | Tarix |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | Mühazirə mövzuları | | | | |
| 1 | **Mövzu 1. Maliyyə menecmentinin predmeti**<br>Plan:<br>1. Maliyyə menecmentinin məzmunu<br>2. Maliyyə menecmenti qərarları, funksiyaları və əsas istiqamətləri<br>3. Maliyyə menecmentin predmeti və vəzifələri<br>4. Maliyyə menecmentinin məqsədləri<br>5. Maliyyə menecmentinin strategiyası və taktikası, idarəetmə obyekti və subyekti<br>Mənbə: [Mühazirə materialları: 1; 2; 3; 4; 5; 6; 7] | 2 | | 2 | |
| 2 | **Mövzu 2. Maliyyə resurslarının formalaşması və pul axınlarının idarə edilməsi**<br>Plan:<br>1. Müəssisənin maliyyə resursları<br>2. Maliyyə bazarı - pul vəsaitlərinin hərəkətinin təşkil edilməsinin xüsusi forma və sferası kimi<br>3. Müəssisənin kompleks idarəetməsinin elementlərindən biri kimi pul axınlarının | 2 | | | |

Scanned with CamScanner

| | | | | | |
|---|---|---|---|---|---|
| | idarə edilməsi<br>4. Pul axınlarının idarə edilməsinin təşkili və pul axınlarının proqnozlaşdırılması<br>5. İnflyasiyanın nağd axınlara təsiri<br>6. İnflyasiyanın nəticələri və inflyasiya ilə mübarizə üsulları<br>7. İnflyasiya şəraitində maliyyə qərarlarının qəbul edilməsi<br>Mənbə: [Mühazirə materialları: 1; 2; 3; 4; 5; 6; 7] | | | | |
| 3 | **Mövzu 3. Müəssisə və təşkilatların maliyyəsinin təşkili prinsipləri, İnvestisiya riski və investisiya üzrə qərar qəbulu**<br>Plan:<br>1. Müəssisələrin maliyyəsinin mahiyyəti, funksiyaları və kommersiya müəssisələrinin maliyyəsinin təşkili prinsipləri<br>2. Müəssisələrdə investisiya fəaliyyəti və investisiya siyasətinin mahiyyəti<br>3. İnvestisiyanın fəaliyyətinin mənbələri və təsnifatı<br>4. İnvestisiyanın əsas növləri və investisiya fəaliyətinin obyekti və subyektləri<br>5. Layihələrin investisiya cəlbediciliyin qiymətləndirilməsinin başlıca vəzifəsi<br>6. İnvestisiya riski, onun qiymətləndirilməsi və idarə edilməsi<br>7. İnvestisiya üzrə qərar qəbulu<br>Mənbə: [Mühazirə materialları: 1; 2; 3; 4; 5; 6; 7] | 2 | | | |
| 4 | **Mövzu 4. Maliyyə menecmenti sistemində müəssisələrin maliyyə mexanizminin təhlili**<br>Plan:<br>1. Müəssisənin maliyyə mexanizminin təhlili<br>2. Müəssisənin maliyyə əmsalları<br>3. Müəssisənin təhlilinin informasiya təminatı<br>4. Müəssisənin maliyyə vəziyyəti<br>5. Müəssisənin maliyyə sabitliyi<br>6. Müəssisənin reytinqinin qiymətləndirilməsi<br>7. Müəssisə balansının likvidliyi<br>Mənbə: [Mühazirə materialları: 1; 2; 3; 4; 5; 6; 7] | 2 | | 2 | |
| 5 | **Mövzu 5. Müəssisənin maliyyə riskləri**<br>Plan:<br>1. Bazar iqtisadiyyatı şəraitində maliyyə risklərinin təsnifatı<br>2. Bazar iqtisadiyyatı şəraitində maliyyə risklərinin səbəbləri<br>3. Maliyyə risklərindən qorunma metodları<br>4. Müəssisələrdə risk menecmentinin funksiyaları və prinsipləri<br>Mənbə: [Mühazirə materialları: 1; 2; 3; 4; 5; 6; 7] | 2 | | | |
| X | Cəmi: | 10 | | 4 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar: Tələbələr:**
- Maliyyə menecmentinin təşkilinin nəzəri-metodoloji əsaslarını öyrənməli;
- Maliyyə menecmentinin konseptual əsaslarını öyrənməli;
- Maliyyə menecmentinin strategiyası və taktikası, idarəetmə obyekti və subyektini öyrənməli;
- Maliyyə menecmentinin vəzifələrini öyrənməli;
- Maliyyə menecmentinin məqsədlərini öyrənməli;
- Maliyyə menecmenti sistemində müəssisələrin maliyyə təhlilinin metodikasını öyrənməli;
- Müəssisənin maliyyə vəziyyəti, maliyyə sabitliyi və ödəmə qabiliyyətinin qiymətləndirilməsi ilə bağlı biliklərə yiyələnməli və s.

**XII. Fənn üzrə təlimin nəticələri:**
- Aktivləri qiymətləndirmək, kapital layihələri və investisiyalar barədə məsləhətlər vermək bacarığına yiyələnmək;
- Maliyyə mənbələrini müəyyənləşdirməyi və qiymətləndirmələr etməyi bacarmaq;
- Maliyyə qərarlarının qəbul edilməsində tövsiyyələr hazırlamağı bacarmaq;
- Biznes və maliyyə riskləri ilə əlaqəli biznes fəaliyyətinin idarə edilməsində müvafiq strategiyaları təhlil etməyi bacarmaq və baş verə biləcək təsirlər barədə tövsiyyələr verməyi bacarmaq;
- İnvestisiya qiymətləndirilməsi, risklərin idarə edilməsi, kapitalın idarə edilməsi bacarığına yiyələnmək və s.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollekvium sualları:**
1. Maliyyə menecmentinin məzmunu
2. Maliyyə menecmenti qərarları, funksiyaları və əsas istiqamətləri
3. Maliyyə menecmentin predmeti və vəzifələri
4. Maliyyə menecmentinin məqsədləri

Scanned with CamScanner

5. Maliyyə menecmentinin strategiyası və taktikası, idarəetmə obyekti və subyekti
6. Müəssisənin kompleks idarəetməsinin elementlərindən biri kimi pul axınlarının idarə edilməsi
7. Pul axınlarının idarə edilməsinin təşkili və pul axınlarının proqnozlaşdırılması
8. Müəssisələrdə investisiya fəaliyyəti və investisiya siyasətinin mahiyyəti
9. Müəssisənin maliyyə mexanizminin təhlili
10. Müəssisələrdə risk menecmentinin funksiyaları və prinsipləri

**XV. Fənn üzrə imtahan sualları:**

1. Maliyyə menecmentinin məzmunu
2. Maliyyə menecmenti qərarları, funksiyaları və əsas istiqamətləri
3. Maliyyə menecmentin predmeti və vəzifələri
4. Maliyyə menecmentinin məqsədləri
5. Maliyyə menecmentinin strategiyası və taktikası, idarəetmə obyekti və subyekti
6. Müəssisənin maliyyə resursları
7. Maliyyə bazarı - pul vəsaitlərinin hərəkətinin təşkil edilməsinin xüsusi forma və sferası kimi
8. Müəssisənin kompleks idarəetməsinin elementlərindən biri kimi pul axınlarının idarə edilməsi
9. Pul axınlarının idarə edilməsinin təşkili və pul axınlarının proqnozlaşdırılması
10. İnflyasiyanın nağd axınlara təsiri
11. İnflyasiyanın nəticələri və inflyasiya ilə mübarizə üsulları
12. İnflyasiya şəraitində maliyyə qərarlarının qəbul edilməsi
13. Müəssisələrin maliyyəsinin mahiyyəti, funksiyaları və kommersiya müəssisələrinin maliyyəsinin təşkili prinsipləri
14. Müəssisələrdə investisiya fəaliyyəti və investisiya siyasətinin mahiyyəti
15. İnvestisiyanın fəaliyyətinin mənbələri və təsnifatı
16. İnvestisiyanın əsas növləri və investisiya fəaliyətinin obyekti və subyektləri
17. Layihələrin investisiya cəlbediciliyin qiymətləndirilməsinin başlıca vəzifəsi
18. İnvestisiya riski, onun qiymətləndirilməsi və idarə edilməsi
19. İnvestisiya üzrə qərar qəbulu
20. Müəssisənin maliyyə mexanizminin təhlili
21. Müəssisənin maliyyə əmsalları
22. Müəssisənin təhlilinin informasiya təminatı
23. Müəssisənin maliyyə vəziyyəti
24. Müəssisənin maliyyə sabitliyi
25. Müəssisənin reytinqinin qiymətləndirilməsi
26. Müəssisə balansının likvidliyi
27. Bazar iqtisadiyyatı şəraitində maliyyə risklərinin təsnifatı
28. Bazar iqtisadiyyatı şəraitində maliyyə risklərinin səbəbləri
29. Maliyyə risklərindən qorunma metodları
30. Müəssisələrdə risk menecmentinin funksiyaları və prinsipləri

Sillabus "Maliyyə idarəetməsi və audit" kafedrasının "26" "XII" 2024-cü il tarixli (07 saylı protokol) iclasında təsdiq olunmuşdur.

Kafedra müdiri: dos. Əlixan Bədəlov

Fənn müəllimi: Murad Təhməzov

Scanned with CamScanner